## BİZİM ŞÜAR:
## "NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!"

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyəz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə "yoldaş" Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

**1988-ci ildə** Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

**1988-1993-cü illərdə** aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

Daxili İşlər Nazirinin müvafiq əmrinə əsasən, 23-25 aprel tarixlərində DİN-in İdman Cəmiyyətində daxili işlər orqan və hissələri arasında silahsız özünümüdafiə üzrə şəxsi və komanda birinciliyi uğrunda yarışlar keçirilib.

Yarışda Daxili Qoşunların yığma komandası 7 idmançı və 1 nümayəndə heyəti ilə təmsil olunub. Daxili Qoşunların hərbi qulluqçuları həmişə olduğu kimi, bu dəfə də fərqlənməyi bacarıblar. Keçirilən yarışlarda şəxsi birincilikdə 17071 saylı hərbi hissənin hərbi qulluqçusu kapitan Ağayev Taleh Məmmədhüseyn oğlu +90 kq çəki dərəcəsində, 67987 saylı hərbi hissənin hərbi qulluqçusu gizir Allahyarov Natiq Ənvər oğlu isə 70 kq çəki dərəcəsində 1-ci yeri tutub.

## İDMAN
## KOMANDAMIZ BU DƏFƏ DƏ FƏRQLƏNDİ

Bundan əlavə, 99713 saylı hərbi hissənin hərbi qulluqçusu leytenant Məmmədov Alim Nazim oğlu 65 kq çəki dərəcəsində, 99713 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Orucov Ramin Yuris oğlu 75 kq çəki dərəcəsində, 99713 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Hüseynov Müşfiq Vəkil oğlu 80 kq çəki dərəcəsində və 25031 saylı hərbi hissənin hərbi qulluqçusu leytenant Seyidov Orxan Sədrəddin oğlu 90 kq çəki dərəcəsində 2-ci yeri tutub.

Yekun nəticələrə görə, Daxili Qoşunların yığma komandası komanda birinciliyində II yeri tutub.

**"Əsgər"**

## NÜMUNƏVİ XİDMƏT



Kursant Emil Abdullayev 1996-cı ildə Qax rayonunun Dəymədağlı kəndində dünyaya göz açıb. Hələ uşaq yaşlarından hərbçi olmaq arzusu ilə yaşayan Emil 2011-ci ildə orta məktəbi əla qiymətlərlə bitirir və arzusunu həyata keçirmək üçün yüksək balla Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olur. Burada hərbçi peşəsinin sirlərini və çətinliklərini mənimsəyir və gələcəkdə əsl peşəkar zabit kimi formalaşmaq üçün 2014-cü ildə Daxili Qoşunların Ali Hərbi Məktəbinə (AHM) qəbul olur.

O, hazırda AHM-in zabit hazırlayan tədris taqımında komandir müavini vəzifəsində xidmət edir. İlk günlərdən həm savadı, həm də bacarığı ilə kursant yoldaşlarına nümunə olan Emil Abdullayev 2014-2015-ci tədris ilinin 1-ci semestrini əla qiymətlərlə başa vurub. "Əlaçı" adına layiq görülən kursantımız təhsildə əldə etdiyi nailiyyətləri ilə yanaşı, nizam-intizamı, xidmətə olan ciddi münasibəti ilə də yoldaşlarından fərqlənir. O, mədəni-kütləvi tədbirlərin təşkil olunmasında xüsusi fəallıq göstərir, komandir tərəfindən verilən bütün tapşırıqların icrasına dəqiq və məsuliyyətlə yanaşır.

Hər bir azərbaycanlı kimi Emil də ilk növbədə işğal olunmuş torpaqlarımızın tezliklə düşmən tapdağından azad olunmasını, qaçqın və məcburi köçkünlərimizin öz doğma yurdlarına qayıtmalarını istəyir. Bunun üçün Azərbaycan Silahlı Qüvvələrinin hər cür imkanlara malik olduğunu deyən Emil, bütün kursant yoldaşları kimi Vətənin müdafiəsinə, onun uğrunda canından keçməyə daim hazırdır.

**gizir N.Rzayeva**

### HƏRBİ AND İÇƏN OĞLAN

Sən uşaqlıq ömrünü
Bu gündən bitirirsən
Xalq önündə söz verib
Öhdəlik götürürsən
Doğmaları ən böyük
Arzuya yetirirsən
Hərbi and içən oğlan.

Düzdür, rahatlığını
Bu and əlindən alır.
Nizamsız həyatını,
Fəqət qaydaya salır
Yurda xidmət işində
İmkanların çoxalır
Hərbi and içən oğlan.

Hərbi xidmət dünyada
Hər sənətdən çətindir.
O kəs buna dözür ki,
Qeyrətlidir, mətindir.
Sağlamlar əsgər olur
Bu, sənin qismətindir
Hərbi and içən oğlan.

Fikir ver, diqqət elə
Əməlinə, işinə.
Baxanlar "Əhsən"! desin
Vüqarlı yerişinə
Bu gün izin verilir
Silahla görüşünə
Hərbi and içən oğlan.

Öz əsgər dostlarından
Estafeti alırsan
Vətəninin, xalqının
Qayğısına qalırsan
Artıq bir evin deyil,
Elin oğlu olursan
Hərbi and içən oğlan!

***Elxan Xəzər, döyüşçü-şair,***
***"Qızıl qələm" mükafatçısı***



### SƏNGƏRDƏ DAYANAN ƏSGƏR

Oyanmışıq top səsinə,
İgidlərin nərəsinə,
Murov, Tülküdərəsində.
Hərdənbir gözün yol çəkər,
Səngərdə dayanan əsgər!..

Sənsən bu torpağa ürək,
Xoş niyyətsən, əzəl dilək,
Sənsiz Vətən nəyə gərək?!
Xətadan yan keç, ol zirək,
Qamətimizi dərd bükər,
Səngərdə dayanan əsgər!...

Qorxutmur nə qar, nə yağış,
Səni verənə min alqış,
Yaman gəldi bu ilki qış,
Qarda çəkmənin içində,
Barmağını şaxta kəsər,
Səngərdə dayanan əsgər!...

Vətənindi, solun-sağın,
Ürəyindi Qarabağın,
İrəvan əzəl torpağın,
Sən ağasan, "yan"-lar nökər,
Səngərdə dayanan əsgər!...

Qayıtsanız həsrət bitər,
Əziyyətin getməz hədər,
Vətən qiyamətə qədər,
Bizimdi, çalarıq zəfər,
Səngərdə dayanan əsgər!...

***Mayisə Əsədullaqızı,***
***"Qızıl qələm" mükafatçısı***

### Əziz əsgərlər!

Mayın 16-da Daxili Qoşunların "N" saylı hərbi hissəsində keçirilən gənc əsgərlərin Hərbi andiçmə mərasimi biz valideynlərin həyatına ən unudulmaz günlərdən biri kimi yazıldı. Siz, övladlarımız Hərbi andı qəbul edərək dövlətinə torpağına, millətinə sadiq olacağınıza and içdiniz. Bir valideyn kimi, bu möhtəşəm tədbirdə iştirak etməkdən qürur duydum.

Hərbi hissədə yaradılan şəraitlə tanış oldum və gördüklərim məni heyran etdi. Bu gün bunların yaradılması Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna, əsgərlərə olan diqqət və qayğısıdır.

Unutmamalıyıq ki, övladlarımızın normal xidmət etməyi üçün biz valideynlər də bu işdə komandirlərə yaxından kömək göstərməliyik.

Mən sizi hərbi andiçmə günü münasibətilə ürəkdən təbrik edir, sizlərə Vətənə xidmətinizdə uğurlar arzulayıram.

**Böyük ədibimiz Abbas Səhət deyirdi:**

***Vətən əcdadımızın mədfənidir,***
***Vətən ovladımızın məskənidir.***
***Vətəni sevməyən insan olmaz,***
***Olsa ol şəxsdə vicdan olmaz.***

Əziz əsgərlər, əziz balalar, Siz yurdumuzun, millətimizin vicdan səsisiniz. Pak, təmiz vicdanınız Mübarək!

**Dahi Məhəmməd Füzuli isə deyirdi:**

**Edəməm tərk Füzuli, səri-kuyin yarın,**
**Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!**

## *HƏRBİ AND İÇƏRƏK DAXİLİ QOŞUNLARDA YENİ XİDMƏTƏ BAŞLAYAN GƏNC ƏSGƏRLƏRƏ XİTABƏN:*
# ...VƏTƏN SİZƏ ƏMANƏTDİR!



Vətən sənin varlığındı. Sən onun bir hissəsi və zərrəsisən.Vətənə xidmət ən böyük məqsəd, ən böyük əhddir!

Əsgər Vətən üçün ləyaqət deməkdir!

Əsgər Vətən üçün ədalət deməkdir!

Əsgər Vətən üçün qəhrəmanlıq deməkdir.

Bu toplaşma, bu hərb yürüşü, bu hərb çağrışı, bu Hərbi and Vətənçiliyin ifadəsidir. Bu Azəbaycançılığın simvoludur, bu türkçülüyün rəmzidir!

Hərdən bizə kiçik xalq da deyirlər. Şah İsmayıl Xətainin dövründə Azərbaycanın ərazisi 2 milyon 800.000 kv. kilometr böyüklüyündə olub. İndi isə 86.000 kv. kilometrdir. Ərazilərimizi zaman - zaman yağılar və dünyanın güc nəhəngləri bax beləcə zəbt və işğal edib kiçildiblər.

Dərdənddən Börü ( pers) körfəzinədək – Ulu Cavidimizin xarakterizə elədiyi kimi, "atəşlə suyun öpüşdüyü məkan" tamamilə əlimizdən alınıb. Ulu Zərdüştün müqəddəs məbədləri yerləşən məkanlar zəbt olunub müstəmləkəyə çevriliblər. Müasir tariximizdə isə cənnət Qarabağımız düşmən tapdağına çevrilib.

Əslində biz nə qədər kiçilsək də, nəhəng əzəmətimiz var.

Biz böyük bir Dövlətin və yurdun övladlarıyıq. Bu gün biz iqtisadi və siyasi gücə malik bir dövlətik.

### Əziz Vətən keşikçiləri!

Bax, diqqətlə dinlə, sadaladığım və sadalamadığım torpaqların geri alınması Siz əsgərlərin öhdəsinə düşür. İnanıram ki, Sizlər böyük qəhrəmanlıqlarla itirilmiş torpaqları yenidən özümüzə qaytaracaqsınız.

***Böyük şairimiz Məmməd Araz deyirdi ki:***

***- "Vətən mənə oğul desə nə dərdim,***
***Mamır olub qayasında bitərdim"...***

Vətən Sizə oğul deyir, əziz balalar.

Siz də Vətənə layiqli övladlar olun, inşallah!

Nəfəsiniz güclü, yolunuz açıq olsun!

Siz Ana Vətənin övladlarısınız.

Analar fəxr edir ki, Vətən Sizə əmanətdir. Qoruyun Vətəni!

Siz qürürlusunuz, şərəflisiniz.Sizi heç kim, heç nə sındıra bilməz! İradəli, dözümlüsünüz. Polad kimi möhkəmsiniz. Mayanız qranit təməllidir.

Siz günəşin övladlarısınız. Sizin hər biriniz uca bir dağsınız, qayasınız...

Zirvəsiniz - əl çatmayan, ün yetməyən zirvə...

Siz Vətənin, torpağın, millətin zirvəsisiniz. Eşq olsun sizə!

Babalarımızın, əcdadlarlarımızın soy kökünə sadiq qalın.

Nağıllarımızdakı, əsatirlərimizdəki, əfsanələrimizdəki, dastanlarımızdakı qəhrəmanlara oxşayın, əməllərinizlə onları yaşadın!

Bu yolda Ulu Tanrı və Uca Göylər Sizlərə yardımçı olsun.

Andınız Sizə halal, eşqiniz Sizə yar olsun.

Eşq olsun Sizə!

**Əmir Pəhləvan, əsgər atası,**
**yazıçı - şair, rejissor,**
**Qırğızıstan Respublikasının**
**"Manas" mükafatçısı**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı və şəxsi heyəti mayor Rasim İbrahimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin şəxsi heyəti kapitan Rəşid Məmmədova **nənəsinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin şəxsi heyəti kapitan Mirzə Mirzəyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin şəxsi heyəti leytenant Ramil Təhməzova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin şəxsi heyəti baş çavuş Tariyel Yolçuyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: leytenant X.Tağıyeva**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63, 590-65-21**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

**№ 10 (452)**
**30 may 2015-ci il**

**Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.**

**Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti**

# BAKIDA I AVROPA OYUNLARININ ATLETLƏR VƏ MEDİA KƏNDLƏRİNİN AÇILIŞI OLUB

### *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva açılışlarda iştirak ediblər*



Dövlətimizin başçısı və xanımı əvvəlcə Atletlər kəndində oldular.

Gənclər və idman naziri, birinci Avropa Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov dövlətimizin başçısına və xanımına görülmüş işlərlə bağlı məlumat verdi.

Qeyd edildi ki, birinci Avropa Oyunlarının keçirilməsi zamanı istifadə olunacaq Atletlər kəndi 383 min kvadratmetr sahəni əhatə edir. Atletlər kəndi Oyunların keçiriləcəyi əsas idman komplekslərinə - Bakı Olimpiya Stadionuna, Milli Gimnastika Arenasına və Heydər Əliyev Beynəlxalq Aeroportuna yaxın olmaqla yanaşı, şəhərin müxtəlif istiqamətlərinə gediş-gəlişin rahat və sərfəli olduğu bir ərazidə yerləşir.

Azərbaycan Prezidenti İlham Əliyev Atletlər kəndinin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva atletlərin qalacağı binalarda yaradılan şəraitlə tanış oldular. On üç yaşayış binasından, yardımçı binalardan ibarət kompleksdə iki, üç və dördotaqlı 1042 mənzil var. Hər mənzil isə 2, 4 və 6 yataq otağından ibarətdir. Burada ümumilikdə 7499 atlet və rəsmi şəxs yerləşə biləcək. Atletlər kəndində idmançılar və komanda rəsmiləri üçün təhlükəsiz, rahat yaşayış şəraiti yaradılıb. Hər binanın birinci mərtəbəsində ümumi istirahət yerləri var. Burada pulsuz internetə çıxış imkanı olacaq.

Oyunlar müddətində atletləri və qonaqları idman arenalarına vaxtında çatdırmaq üçün inşa edilən böyük avtobus dayanacağında da hər cür şərait yaradılıb.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Atletlər kəndindəki yeməkxana ilə də tanış oldular. Bildirildi ki, burada idmançılara əsasən dünya mətbəxi təqdim ediləcək. Yeməkxanada eyni vaxtda 2015 atletə yüksək səviyyədə xidmət göstəriləcək.

Dövlətimizin başçısı Atletlər kəndinin kommersiya mərkəzi ilə də tanış oldu. Burada gözəllik salonu, poçt, turizm ofisi və valyuta mübadiləsi məntəqəsi fəaliyyət göstərəcək. Oyunların keçirildiyi günlərdə buradakı supermarketdə "Bakı-2015" birinci Avropa Oyunlarının rəmzlərinin əks olunduğu məhsullar satışa çıxarılacaq. Kommersiya mərkəzindən müxtəlif stadionlarda və idman qurğularında Oyunları izləmək üçün bilet almaq da mümkün olacaq. Bunun üçün ayrıca bilet satışı məntəqəsi fəaliyyət göstərəcək.

Qeyd olundu ki, bu mötəbər idman yarışını izləmək üçün artıq 200 minə yaxın bilet satılıb. Bu proses hazırda davam edir. Müşahidələr göstərir ki, Oyunlara maraq həddən artıq böyükdür.

Atletlər kəndinin mədəniyyət və turizm mərkəzində isə sərgi təşkil olunacaq. Burada ölkəmizin müxtəlif dövrlərə aid sənətkarlıq nümunələri, o cümlədən xalça, geyim və məişət əşyalarının nümayişi və satışı təşkil ediləcək.

Sonra Prezident İlham Əliyev və birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva "Best of Azerbaijan" adlanan yeməkxana ilə tanış oldular. Burada yalnız ölkəmizin zəngin mətbəxinə aid təamlar təklif olunacaq və bu xidmətdən eyni vaxtda 450 idmançı istifadə edəcək.

Atletlər kəndində əsas diqqət yetirilən məsələlərdən biri də yarışlar zamanı idmançılara və məşqçilərə, qonaqlara, ümumiyyətlə ehtiyacı olan hər kəsə yüksək tibbi xidmət göstərməkdir. Bu məqsədlə də burada xüsusi poliklinika fəaliyyət göstərəcək. Binada müxtəlif təyinatlı otaqlar, o cümlədən qeydiyyat, müalicə, stomatoloji, oftalmoloji, laboratoriya, rentgen, fizioterapiya və s. xidmət sahələri var. Poliklinika ən zəruri avadanlıqla təchiz olunub. Bu səhiyyə mərkəzi hər gün səhər saat 8-dən axşam saat 20-dək fəaliyyət göstərəcək və günün 24 saatı təcili yardım xidməti olacaq. Dopinq nəzarəti mərkəzi də poliklinika ilə yanaşı yerləşir.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Media kəndinin açılışında iştirak etdilər.

Azərbaycan Prezidenti Media kəndinin rəmzi açılışını bildirən lenti kəsdi.

Birinci Avropa Oyunlarını işıqlandırmaq məqsədilə ölkəmizə gələn jurnalistlər Media kəndində yerləşdiriləcək. Burada media nümayəndələrinə səmərəli işləmək və istirahət etmək üçün hər cür şərait yaradılıb. Akkreditasiya mərkəzi ilə tanışlıq zamanı bildirildi ki, ilk Avropa Oyunlarını işıqlandırmaq məqsədilə 900-ə yaxın xarici media təmsilçisi qeydiyyatdan keçib. Burada da mədəniyyət və turizm mərkəzi yaradılıb. Mərkəzdə jurnalistlər üçün Azərbaycan haqqında müxtəlif məlumatların əks olunduğu bukletlər və kitablar sərgilənir. Burada yaradılan şərait təsdiq edir ki, Azərbaycanda birinci Avropa Oyunlarına ən yüksək səviyyədə və bütün parametrlərə uyğun hazırlıq gedir. Xarici media təmsilçilərinə yaradılan şərait jurnalistlərə Oyunları operativ şəkildə bütün dünyaya çatdırmağa imkan verəcək. Onları Media kəndindən idman arenalarına pulsuz xüsusi avtobuslar aparıb-gətirəcək.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva jurnalistlərin qalacağı mənzillərlə də tanış oldular. Media kəndindəki 4 binada ümumilikdə 536 mənzil var. Media kəndində jurnalistlər üçün ayrıca yeməkxana nəzərdə tutulub. Burada onlara dünya mətbəxindən müxtəlif təamlar təklif olunacaq. Yeməkxanada eyni vaxtda 500 nəfər qidalana biləcək.

Həm Atletlər, həm də Media kəndlərində yaradılan şərait dünyada idman ölkəsi kimi tanınan, Olimpiya hərəkatına dəstəyi dövlət siyasətinin əsas istiqamətlərindən biri seçən Azərbaycanda bu cür infrastruktur layihələrinin icrası həm də ölkəmizin uğurlu inkişafının göstəricisidir. Burada görülən hazırlıq işləri bu mötəbər beynəlxalq idman tədbirinin yüksək səviyyədə keçiriləcəyinə bir daha əminlik yaradır. Oyunlar zamanı paytaxtımıza 10 minədək idmançının, məşqçinin, rəsmi şəxsin, jurnalistin gələcəyi gözlənilir. Yarış günlərində Avropanın, eləcə də dünyanın aparıcı telekanalları Bakıdan xəbərlər yayacaq, paytaxtımız növbəti dəfə dünya idmanının mərkəzinə çevriləcək. Birinci Avropa Oyunlarının keçirilməsində qazanacağımız təcrübə gələcəkdə digər mühüm yarışlara ev sahibliyi etməyimizə geniş imkan yaradacaq.

## BELARUS DAXİLİ QOŞUNLARININ NÜMAYƏNDƏ HEYƏTİNİN RƏSMİ SƏFƏRİ

***Səfər çərçivəsində Belarus Respublikası Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Yuriy Karayev Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov və Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovla görüşüb***



Belarus Respublikası Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Yuriy Hacimuratoviç Karayevin rəhbərlik etdiyi nümayəndə heyəti DİN-in Daxili Qoşunlarında rəsmi səfərdə olub.

Mayın 18-də nümayəndə heyəti Fəxri Xiyabana gedərək, Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı üzərinə əklil qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilərək məzarı üzərinə gül dəstələri qoyulub.

Sonra Şəhidlər Xiyabanına gələn belaruslu qonaqlar, Azərbaycanın azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Nümayəndə heyəti Şəhidlər Xiyabanında Daxili Qoşunların Qarabağ müharibəsində şəhid olmuş hərbi qulluqçularının xatirəsinə ucaldılmış "Qardaşlıq məzarı"nı da ziyarət ediblər.

Həmin gün Belarus Respublikası Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Y.H.Karayevi Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov qəbul edib.

Daxili Qoşunların Baş İdarəsində Belarus Respublikası Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Y.H.Karayevin qarşılanma mərasimi keçirilib. General-mayor Y.H.Karayev Daxili Qoşunların Şərəf Kitabında öz qeydlərini apardıqdan sonra, hər iki qurumun nümayəndə heyəti arasında görüş keçirilib. Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov qonağı salamlayaraq, bu görüşün hər iki ölkənin Daxili Qoşunları arasında hərtərəfli əlaqələrin inkişafına təkan verəcəyini bildirib.

Nümayəndə heyətinin rəhbəri qonaqpərvər qəbul üçün Daxili Qoşunların Komandanına öz təşəkkürlərini bildirib. Azərbaycan Respublikasına səfərdən məmnun olduqlarını deyən hörmətli qonaq, iki qurum arasında əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Səmimi şəraitdə baş tutan görüşdə iki qurum arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri müzakirə olunub.

Sonra Daxili Qoşunların yaranma tarixi, strukturu, normativ-hüquqi bazası, təlim-tədrisin, təchizatın vəziyyəti və beynəlxalq əlaqələri barədə geniş məzmunlu brifinq verilib.

Görüşün sonunda qonaqlarla xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, qonaqlar səfər müddətində qoşunların Zaqatala və Qəbələ rayonlarında yerləşən hərbi hissələrində şəxsi heyətin taktiki təlimini izləyib və onlar üçün yaradılmış şəraitlə tanış olub.

## DAXİLİ QOŞUNLAR XİLASETMƏ İŞLƏRİNDƏ XÜSUSİ FƏALLIQ GÖSTƏRİB





May ayının 19-u, Bakı şəhərinin Binəqədi rayonunda yerləşən 16 mərtəbəli yaşayış binasında baş vermiş yanğında xilasetmə işlərində digər aidiyyatı qurumlarla yanaşı, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları da xüsusi fəallıq göstərmişlər. Zərərçəkmiş şəxslərin xilas edilməsinə helikopter eskadrilyasının ekipajı və "N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin 9 hərbi qulluqçusu cəlb olunmuş, bina sakinlərinin təxliyyəsi üçün xilasetmə əməliyyatı keçirilmişdir. Ekipaj üzvləri eskadrilyanın komandiri polkovnik-leytenant Mirzə Fərəcov, pilot-şturman mayor Rüfət Bağırov, bort-texnik kapitan Sabir Səfiyev tərəfindən hadisə yeri öyrənilmiş, qiymətləndirilərək helikopter 30 metrə yaxın hündürlükdə, 16 mərtəbəli binanın damına yaxınlaşdırılmışdır. Bundan sonra, xüsusi təyinatlı dəstənin 3 hərbi qulluqçusu – qrup komandiri leytenant Anar Mahmudov, yarımqrup komandiri gizir Eldar Məmmədov, çavuş Şamil Kərimov alpinist ipləri və kanatlar vasitəsi ilə binanın üstünə enərək xilasetmə işlərini həyata keçirmişlər.

Qeyd edək ki, xilasetmə işlərində yüksək mərtəbəli binanın damına helikopter vasitəsi ilə yaxınlaşaraq vətəndaşların təxliyyəsi üzrə xilasetmə işləri ilk dəfə aparılmış və Daxili Qoşunların hərbi qulluqçuları buna müvəffəq olmuşlar.

Hərbi anda sadiq qalaraq, xidməti vəzifə borclarını layiqincə yerinə yetirərək, vətəndaşların həyatını xilas etmiş bütün hərbi qulluqçular Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov tərəfindən mükafatlandırılıblar. Mükafatların təqdim olunma mərasimində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili İşlər Nazirinin xilasedicilərə təşəkkürünü çatdıraraq, onların şücaətinin bir çox hərbi qulluqçulara nümunə olmasını qeyd edib. Cənab Komandan əminliklə bildirib ki, Daxili Qoşunlar bundan sonra da qarşıya qoyulan istənilən tapşırığın yerinə yetirilməsinə həmişə hazır olacaqdır.




# “BİRİNCİ AVROPA OYUNLARINI ƏN YÜKSƏK SƏVİYYƏDƏ KEÇİRƏCƏYİK!”

*"The Business Year" jurnalının “Bakı 2015” I Avropa Oyunlarına həsr olunmuş xüsusi buraxılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi dərc edilib. Müsahibənin I Avropa Oyunlarına aid olan hissəsini təqdim edirik.*

***- Cənab Prezident, bu ilin iyununda Azərbaycanda I Avropa Oyunları keçiriləcək. İlk oyunlara ev sahibliyi edən bir şəhər olaraq Bakıda hansı nadir cəhətlər nəzərdə tutulur? Eyni zamanda, Oyunlar Azərbaycanın idman həyatında hansı izlər qoyacaq?***

- Birinci Avropa Oyunlarını keçirmək bizim üçün həm böyük etimad, həm də böyük məsuliyyətdir. Eyni zamanda, biz bunu Azərbaycana beynəlxalq miqyasda göstərilən marağın təzahürü kimi dəyərləndiririk. Son 10 ildə Azərbaycanın dinamik inkişafı, cəmiyyət həyatının bütün sahələrində əldə olunmuş mühüm uğurlar, beynəlxalq arenada yürütdüyümüz müstəqil, fəal siyasət ölkəmizin nüfuzunu daha da yüksəltmişdir. Həmçinin həyata keçirilmiş nəhəng quruculuq və abadlıq işləri nəticəsində Bakı dünyanın ən gözəl, ən müasir şəhərlərindən birinə çevrilmişdir. Ümid edirəm ki, Bakı qonaqlar və idmançılar üçün gözəl məkan olacaqdır.

Azərbaycan həm də beynəlxalq Olimpiya hərəkatının fəal üzvlərindəndir, idmançılarımızın mötəbər beynəlxalq turnirlərdə qazandığı uğurların sayı ildən-ilə artır. Azərbaycanın əksər bölgələrində müasir standartlara uyğun Olimpiya kompleksləri, digər idman qurğuları yaradılmışdır. Bu, həm də Azərbaycanda idmanın kütləviliyini şərtləndirən mühüm amillərdən biridir.

Azərbaycan çoxsaylı beynəlxalq və regional səviyyəli tədbirlərə ev sahibliyi etməkdə böyük təcrübə qazanmışdır. Bu günədək Bakıda siyasi, iqtisadi, humanitar, idman və digər sahələrdə mühüm beynəlxalq tədbirlər uğurla keçirilmişdir.

Bu il iyunun 12-dən 28-dək baş tutacaq ilk Avropa Oyunlarında 49 ölkədən 6000-dən artıq idmançı 20 idman növündə mübarizə aparacaq. Biz bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirəcəyik.

Avropa Olimpiya Komitəsinin dəstəyi ilə 40-dan artıq ölkənin nümayəndələrinin çalışdığı güclü beynəlxalq komanda formalaşdırılmış və artıq hazırlıq işləri yekunlaşmaq üzrədir. Müasir idman infrastrukturunun yaradılması sahəsində genişmiqyaslı iş aparılmışdır. Tədbirlərin keçiriləcəyi idman obyektlərinin böyük əksəriyyətinin tikintisi başa çatmışdır və ya son tamamlanma işləri görülür. Ümumilikdə, ilk Avropa Oyunları Bakıda 21 idman obyektində keçiriləcək. Açılış mərasiminin baş tutacağı 68 min nəfərlik Bakı Olimpiya Stadionundan əlavə, 7300 nəfərlik Olimpiya Şəhərciyi də oyunlara hazırlanır. Paytaxtın nəqliyyat infrastrukturu təkmilləşdirilmiş, müvafiq təhlükəsizlik tədbirləri görülmüş, qonaqların, idmançıların qarşılanması, yerləşməsi, məşqlərin keçirilməsi və digər təfərrüatlar tam nəzərə alınmışdır.

Hesab edirəm ki, Avropa Oyunları müxtəlif idman növlərinin ölkəmizdə təbliği, yeni nəsil idman mütəxəssislərinin formalaşması baxımından mühüm əhəmiyyətə malikdir. Həmçinin Oyunlar Azərbaycan üçün gözəl sosial təbliğat vasitəsi olacaqdır. Ölkə əhalisinin üçdə ikisinin yaşı 35-dən aşağıdır və bu böyük təbəqə idmanın təşviq etdiyi amallar haqqında məlumatlar alacaqdır. Avropa Oyunlarının keçirilməsi üçün yaradılmış infrastruktur şəhərimizin və ölkəmizin gələcəkdə digər beynəlxalq idman yarışlarına ev sahibliyi etməsini də asanlaşdıracaq. 2016-cı ildə biz Dünya Şahmat Olimpiyadasını keçirəcəyik, eyni zamanda, ilk dəfə olaraq “Formula-1” yarışları regionumuza gələcəkdir. 2017-ci ildə isə Bakı müsəlman dünyasını bir araya gətirən İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək.

İki il ərzində bir ölkədə, bir şəhərdə həm Avropa Olimpiya, həm də İslam Həmrəyliyi oyunlarının keçirilməsinin rəmzi mənası vardır. Azərbaycan bütün dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı çoxmillətli, çoxkonfessiyalı və çoxmədəniyyətli ölkədir. Bu gün Azərbaycan daha çox aktuallaşan sivilizasiyalararası dialoqa öz dəyərli töhfəsini verir.

Düşünürəm ki, bu Oyunlar Azərbaycanın mədəniyyətinin, zəngin multikulturalizm ənənələrinin, turizm imkanlarının, həmçinin Azərbaycan brendi olan məhsulların təbliği baxımından da çox faydalı olacaqdır.

Bir sözlə, bizim güclü potensialımız, mükəmməl idman infrastrukturumuz, böyük beynəlxalq tədbirləri təşkil etmək sahəsində yaxşı təcrübəmiz vardır və əminəm ki, bu Oyunları ən yüksək səviyyədə keçirəcəyik. “Bakı-2015” idman tarixində yeni maraqlı səhifə olacaq. Bu, həmçinin dörd ildən sonra keçiriləcək növbəti Oyunlara bələdçi hadisədir və Avropa Oyunlarının standartları məhz Bakıda müəyyənləşdiriləcək.

# DAXİLİ QOŞUNLARIN I AVROPA OYUNLARINA XİDMƏTƏ HAZIRLIĞI YOXLANILIB

**ARTIQ DAXİLİ QOŞUNLARIN XİDMƏTƏ CƏLB OLUNAN HƏRBİ QULLUQÇULARI İCTİMAİ QAYDANIN QORUNMASI, İCTİMAİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNDƏ QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARIN İCRASINA BAŞLAYIB**



*İyunun 12-dən 28-dək, idmanın 20 növü üzrə keçiriləcək I Avropa Oyunlarına ev sahibliyi etmək şərəfli olduğu kimi, məsuliyyət də tələb edir. Yarışların yüksək səviyyədə keçirilməsi üçün qarşıya qoyulmuş bütün tələblərdən irəli gələn tədbirlər artıq yekunlaşıb. Bu baxımdan, yarışlar ərəfəsi və yarışlar zamanı ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsinə digər güc strukturları ilə yanaşı cəlb edilən Daxili İşlər Nazirliyinin Daxili Qoşunları da şəxsi heyətin hazırlığı və bütün təminatı üzrə qarşıya qoyulan mühüm tapşırıqları tam yerinə yetirib.*

Bu məqsədlə, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov tərəfindən Daxili Qoşunların 99713 və 67987 saylı hərbi hissələrində I Avropa Oyunları zamanı ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsinə cəlb olunmuş hərbi qulluqçuların hazırlığı, geyim təminatı, xüsusi avadanlıq və vasitələrlə təchizatı, eləcə də avtomobil və xüsusi texnikaların vəziyyəti yoxlanılıb.

General-leytenant Ş.Məmmədova məruzə olunub ki, hərbi hissələrin şəxsi heyəti respublikada keçiriləcək I Avropa Oyunları zamanı qarşıya qoyulmuş tapşırıqların təmin edilməsində xidmətə tam hazırdır. Qeyd olunub ki, yarışların keçiriləcəyi ərazilərə xüsusi icazəsi olmayan şəxslərin saxlanılması və avtomaşınların daxil olmasının, eyni zamanda baş verə biləcək digər xoşagəlməz halların qarşısının alınması tam yerinə yetiriləcək. Belə ki, xidmətin təşkili ilə əlaqədar müvafiq plan-hesab hazırlanıb, əməliyyat qərargahları yaradılıb. Hərbi hissə komandanlıqlarının xidmətaparma yerləri ilə əyani tanışlığı təmin edilib. Daxili Qoşunların bütün şəxsi heyəti ilə I Avropa Oyunlarının tarixi əhəmiyyəti və siyasi mahiyyəti barəsində, xidmət zamanı davranış xüsusiyyətləri ilə əlaqədar söhbətlər aparılıb. Həvalə olunmuş obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmin olunması üzrə xüsusi məşğələlər keçirilib.

Yarışlarda iştirak edəcək vətəndaşları xüsusi aparatlarla yoxlamaq məqsədilə hərbi qulluqçularımızla polis orqanlarının əməkdaşları ilə birlikdə müvafiq kurslar keçirilib. Buraxılış rejimini təmin edəcək qadın hərbi qulluqçularımızla 45 günlük ingilis dili kursları təşkil olunub. Bununla yanaşı, styuard xidmətinin aparılmasına cəlb olunacaq şəxsi heyət və qadın hərbi qulluqçuların xüsusi geyim forması ilə, perimetr boyu xidmət aparacaq hərbi qulluqçuların isə xüsusi önlüklərlə təminatına baxış keçirilib. Hələ 2014-cü ilin sonundan etibarən, ərazilərin minalardan təmizlənməsi üzrə Milli Agentlikdə təşkil olunmuş kurslarda təlim keçmiş mühəndis-istehkam qruplarının da təminatına və təchizatına diqqət yetirilib. Daha sonra, xidmət aparılan zaman əməliyyat qərargahları, köməkçi əməliyyat qərargahları, eləcə də Daxili Qoşunların Baş İdarəsində Baş İdarəetmə Mərkəzi ilə dayanıqlı rabitənin təşkil edilməsi üçün rabitə avadanlıqlarına baxış keçirilib.

Xidmətin daha yüksək səviyyədə təşkil olunması üçün yeni müasir avadanlıq, texnika və xüsusi avtomobillər alınıb. Yarışlar zamanı şəxsi heyətin daşınması üçün əsasən iritutumlu və ortatutumlu avtobuslardan istifadə olunacaq. Həmçinin şəxsi heyətin keyfiyyətli ərzaqla təmin olunması üçün üzərində soyuducu quraşdırılmış refrijeratorların da istifadəyə hazırlığı yoxlanılıb.

Cənab Komandan Daxili İşlər Nazirliyinin xidmətlərinin, ərazi polis orqanlarının, nizami polis hissələrinin və Daxili Qoşunların hərbi qulluqçularının fəaliyyətinin koordinasiyası, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin təşkili istiqamətində cavabdehlik daşıyan məsul vəzifəli şəxslərə konkret tapşırıqlarını verib.

Sonra Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov şəxsi heyət qarşısında çıxış edib. I Avropa Oyunlarının Bakıda keçirilməsinin ölkəmiz üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayan Komandan qeyd edib ki, bu kimi beynəlxalq turnirlərin məhz Azərbaycanda reallaşması heç də təsadüfi deyil: “Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində respublikamız dünyada müasir, sabit və dinamik inkişaf edən ölkə kimi tanınır. Daxili sabitliyin və ictimai asayişin hökm sürdüyü ölkəmizin beynəlxalq nüfuzu günü-gündən artmaqdadır”.

I Avropa Oyunlarının ilk dəfə olaraq respublikamızda keçirildiyindən ölkəmizin dünyanın diqqət mərkəzində olacağını deyən Daxili Qoşunlar Komandanı oyunlar zamanı təhlükəsizlik tədbirlərinə son dərəcə məsuliyyətlə yanaşmağın vacibliyini vurğulayıb.

Qeyd edib ki, müasir tarixə əlamətdar hadisə kimi düşəcək ilk Avropa Oyunları Azərbaycanın yeniyetmə və gənclərinin idmana cəlb olunmasında çox böyük rol oynayacaq. Eyni zamanda Avropa Oyunları ölkəmizin dünyada daha da tanınmasına və böyük inam qazanmasına gətirib çıxaracaq.

Çıxışının sonunda Daxili Qoşunların I Avropa Oyunları zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmətə tam hazır olduğunu diqqətə çatdıran general-leytenant Ş.Məmmədov şəxsi heyətə çətin və məsuliyyətli işdə uğurlar arzulayaraq, göstərilən etimadı doğruldacaqlarına əminliyini ifadə edib.

**Mətbuat xidməti**











# GƏNC ƏSGƏRLƏR VƏTƏNƏ SƏDAQƏT ANDI İÇDİLƏR



Mayın 16-da Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 25031 saylı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirildi. Mərasimdə əsgər valideynləri də iştirak edirdi.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət Himni ifa olundu.

Hərbi hissə komandiri polkovnik Salamat Cəfərov çıxış edərək, gənc əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına sədaqət andı içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırlatdı.

Sonra gənc əsgərlərin təntənəli şəkildə andiçmə mərasimi keçirildi. Bu münasibətlə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun təbrik və tövsiyələri çatdırıldı.

Təbrikdə qeyd edildi ki, bu andan etibarən gənc əsgərlər Daxili Qoşunların bütün şəxsi heyəti kimi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə görə şəxsi məsuliyyət daşıyırlar. Hər bir gənc əsgər bu müqəddəs andın mənasını tam dərk etməli, hərbi anda sadiq qalaraq, bundan sonra da dövlətçiliyimizin qorunması, ölkəmizin daha da qüdrətlənməsi, inkişafı və tərəqqisi, eləcə də vətəndaşlarımızın təhlükəsizliyi və torpaqlarımızın müdafiəsi naminə əllərindən gələni əsirgəməməlidirlər.

Daha sonra çıxış üçün söz Daxili Qoşunlar Komandanının müavini-Şəxsi heyət üzrə İdarənin rəisi general-mayor Vidadi Əliyevə verildi. Bu günün əlamətdar və şərəfli bir gün olduğunu vurğulayan general-mayor V.Əliyev bütün əsgərləri cəsur, nizam-intizamlı olmağa, komandirlərin əmr və tapşırıqlarını sözsüz yerinə yetirməyə, Vətənə namusla, ləyaqətlə xidmət etməyə və Daxili Qoşunların adını, nüfuzunu hər zaman qorumağa çağırdı.

Döyüşçü-şair Elxan Xəzər də gənc əsgərləri Hərbi andiçmə münasibətilə təbrik edərək, onlara Azərbaycan əsgərinə xas olan bütün xüsusiyyətləri özlərində formalaşdırmağı tövsiyə etdi.

Əsgər valideynləri adından çıxış edən Əmir Hacızadə isə hərbi hissədə əsgərlər üçün yaradılan hərtərəfli şəraitə görə Silahlı Qüvvələrin Ali Baş Komandanı, ölkə prezidenti cənab İlham Əliyevə, Daxili İşlər Nazirinə və Daxili Qoşunların Komandanlığına dərin minnətdarlığını bildirdi.

Andiçmə mərasimi gənc əsgərlərin təntənəli keçidi ilə başa çatdı.

**leytenant X.Tağıyeva**

*qaynar xətt*

# ƏSGƏR VALİDEYNLƏRİ YARADILAN ŞƏRAİTDƏN MƏMNUNDUR

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğu istiqamətində gördüyü məqsədyönlü tədbirlər sayəsində hərbi qulluqçuların sosial-məişət şəraiti günü-gündən yaxşılaşır. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı qarnizonunda və regionlarında yerləşən hərbi hissələrində görülən məqsədyönlü tədbirlər məhz bu qəbildəndir.

İstirahət və bayram günlərində övladlarının görüşünə gəlmiş əsgər valideynləri, o cümlədən bir sıra dövlət tədbirləri ilə əlaqədar hərbi hissələrdə olan ictimaiyyət nümayəndələri də qoşunlarda yaradılmış hərtərəfli şəraiti görür və həyata keçirilən bütün tədbirləri yüksək qiymətləndirirlər.

Valideynlərin hərbi hissələrdən “Qaynar xətt” vasitəsi ilə Daxili Qoşunların Baş İdarəsinə etdiyi zənglərdən də bunu bir daha görmək olar.

16075 saylı hərbi hissədən “Qaynar xətt”ə zəng edən Masallı rayon Ərçivan kənd sakini, əsgər atası Şaban Nəzərov hərbi hissədə yaradılan şəraitdən və əsgərlərə göstərilən diqqət və qayğıdan razı qaldığını bildirdi: “Mən hərbi hissədə xidmət edən əsgər Yalçın Nəzərovun valideyniyəm. Burada əsgərlərin xidmət etməsi üçün hər bir şərait var. Komandirlərin onlara münasibətləri də çox yaxşıdır. Bütün bunlara görə cənab Prezidentimizə və Daxili Qoşunların Komandanlığına minnətdarlığımızı bildiririk!”.

Qazax rayonunun Ağköynək kəndindən Daxili Qoşunların qospitalında (12576 saylı hərbi hissə - A.Ə.) müalicə alan oğlunu görməyə gələn Şirzad İbrahimov da əsgərlərə göstərilən xüsusi diqqətə görə yuxarı komandanlığa öz dərin minnətdarlığını çatdırdı: “Oğlum, əsgər Fuad İbrahimov Daxili Qoşunların Qəbələ rayonunda yerləşən 17071 saylı hərbi hissəsində xidmət edir. Səhhəti ilə əlaqədar qospitalda müalicə alır. İstər hərbi hissədə, istərsə də qospitalda olarkən mən əsgərlərimizə qarşı ilk növbədə yalnız diqqət və qayğı gördüm. Yaradılmış şəraitə isə söz ola bilməz. Belə ordumuzun olması ilə ancaq fəxr etmək olar. Burada da (12576 saylı hərbi hissədə - A.Ə.) sağ olsunlar həkimlərimiz, tibb bacıları əsgərlərin qayğısına qalır, öz övladları kimi onların qulluğunda dayanırlar. Həkimlərimizin peşəkarlığı sayəsində hərbi qulluqçular keyfiyyətli müalicə alırlar. Bir daha Daxili Qoşunların rəhbərliyinə təşəkkürümüzü bildiririk!”.

Daxili Qoşunların qospitalından “Qaynar xətt”ə zəng edən əsgər valideynləri - Bakı şəhər sakinləri Mahmizər Mehdibəyova, Cəmil Əlizadə və Ağcabədi rayon Minəxorlu kənd sakini Yaqub Əliyev də burada xəstələr üçün yaradılan şəraitdən, göstərilən diqqət və qayğıdan olduqca razı qaldıqlarını bildiriblər.

Bundan əlavə “Qaynar xətt”ə 17074 saylı hərbi hissədə xidmət edən əsgər Rahib Kərimovun atası-Goranboy rayonunun Cinli-Borsunlu kənd sakini vətəndaş İmran Kərimov, əsgər İsa Abdullayevin atası-Bakı şəhər sakini Mahir Abdullayev, eləcə də 99713 saylı hərbi hissədə xidmət edən əsgər Nihad Əlizadənin atası - Lənkəran rayon sakini vətəndaş Ceyhun Əliyev zəng edərək, Daxili Qoşunlarda hərbi qulluqçular üçün yaradılmış hərtərəfli şəraitdən məmnun olduqlarını bildirərək, bütün bunlara görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

**baş leytenant A.Əhmədov**

*nümunəvi xidmət*

# SAVADLI VƏ BACARIQLI ƏSGƏR İSTƏNİLƏN TAPŞIRIĞIN YERİNƏ YETİRİLMƏSİNDƏ ƏSAS QÜVVƏDİR

***Ənənəmizə sadiq qalaraq bu sayımızda da Daxili Qoşunlarda nizam-intizamı, eləcə də nümunəvi xidmətilə seçilən hərbi qulluqçular barədə material hazırlanıb. Bu dəfə 12318 saylı hərbi hissənin nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçularını təqdim edirik.***



**Baş gizir Əliheydər İmanov** 1978-ci il iyul ayının 29-da Hacıqabul rayonunda anadan olub. Orta təhsilini doğma rayonda başa vurduqdan sonra 1996-1999-cu illərdə Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə 12318 saylı hərbi hissədə başlayıb. Bilik və bacarığı ilə fərqlənən baş gizir Ə.İmanov hazırda təminat bölüyündə taqım komandiridir.

O, tabeçiliyində olan şəxsi heyətin nizam-intizamını ciddi nəzarətdə saxladığını vurğuladı. Nəzəri məşğələlərin əhəmiyyətini önə çəkən taqım komandiri bildirdi ki, əsgərlər hərbi biliklərə yiyələnmək məqsədilə səylərini artırırlar. Baş gizir Ə.İmanov hesab edir ki, savadlı və bacarıqlı əsgər istənilən tapşırığın yerinə yetirilməsində əsas qüvvədir. Təbii ki, hər bir döyüşün nəticəsi savadlı əsgərdən asılıdır.

Qeyd edim ki, taqımın tərkibində orkestr manqası da fəaliyyət göstərir. Baş gizir Ə.İmanov məşqlər üçün hər bir şəraitin mövcud olduğunu söyləyərək, orkestr manqasının hərbi hissənin özfəaliyyət dərnəyində çıxışlar etdiyini diqqətə çatdırdı.



**Əsgər Elnur İsmayılbəyli** 1992-ci il iyulun 8-də Şəki şəhərində dünyaya göz açıb. Azərbaycan Memarlıq və İnşaat Universitetinin “Nəqliyyat” fakültəsində ali təhsil alıb. 2014-cü ilin iyul ayından qoşunların 12318 saylı hərbi hissəsinin patrul bölüyündə əsgəri xidmətdədir. Xidməti dövründə fəallığı ilə seçilən Elnur komandirləri tərəfindən müsbət xarakterizə olunur. O, bölüyün gündəlik fəaliyyətində iştirak edir. Elnur xüsusi istedadı ilə də fərqlənir. Bölüyün həyatından bəhs edən divar qəzetinin hazırlanmasında əlindən gələni əsirgəmir. Qəzetdə müxtəlif mövzularla çıxış edən əsgər E.İsmayılbəyli həm də gözəl rəsm çəkmək qabiliyyətinə malikdir. Elnur bu işi sevə-sevə gördüyünü və bundan sonra da səylə çalışacağını bildirdi.

Patrul bölüyündə xüsusi istedadı ilə fərqlənən digər bir hərbi qulluqçu **əsgər Özal Ələsgərovdur.** O, 1993-cü il mart ayının 4-də Quba rayonunun Alpan kəndində anadan olub. Sumqayıt Dövlət Universitetinin “Fizika və elektroenergetika” fakültəsində ali təhsil alıb. 2014-cü ilin iyul ayından müddətli həqiqi hərbi xidmətdədir. İdmanın armrestlinq (qol güləşi) növü ilə məşğuldur. İkiqat Respublika çempionu olan Özal beynəlxalq iştirakçısıdır. O, eyni zamanda xidməti dövründə də fərqlənməyi bacarıb. Daxili işlər orqan və hissələri arasında çoxnövçülük üzrə keçirilən turnirdə qoşunları təmsil edən əsgər Ö.Ələsgərov 85 kiloqram çəki dərəcəsində bütün rəqiblərini üstələyib. Birinci yerə layiq görülərək Daxili Qoşunların qızıl medallarının sayına birini də əlavə edib. Özal bundan sonra da qalibiyyətlərinin sayını artırmağa israrlıdır.



**baş leytenant T.Əlizadə**

***Veteran sözünün hərfi mənasına nəzər salsaq görərik ki, mənşə etibarilə veteran - əməkdar, peşəkar, təcrübəli kimsə, çoxdanki işçi, yəni örnək götürüləcək şəxs kimi başa düşülür. Dünyanın bir çox ölkələrində müharibə, silahlı qüvvələr və əmək veteranları cəmiyyətin fəal üzvü kimi, bir növ vətəndaşlıq mövqeyinin daşıyıcısı olaraq fəaliyyət göstərirlər.***

***Ölkəmizdə də veteranlar yüksək dövlət qayğısı ilə əhatə olunur. Respublika prezidenti cənab İlham Əliyevin veteranları ictimaiyyətin çox nüfuzlu üzvü kimi təqdim etməsi, gənclərə vətənpərvərlik ideyalarının aşılanmasında onların müstəsna xidmətlərinin olduğunu vurğulaması deyilənləri bir daha sübut edir.***

# DÖYÜŞ RUHUNUN YÜKSƏLDİLMƏSİNDƏ VETERANLARIMIZIN MÜSTƏSNA ƏMƏYİ VAR

Qoşunlarımızın Veteranlar Şurasının üzvlərinin fəaliyyəti DİN rəhbərliyinin və Daxili Qoşunlar Komandanlığının diqqət mərkəzindədir. Veteranlarımızın şəxsi heyətin vətənpərvər ruhda formalaşması, onlara Vətən sevgisinin aşılanması, dövlət və dövlətçiliyimizə sadiqlik nümayiş etdirilməsi istiqamətində gördüyü mühüm işlər yüksək qiymətləndirilir.




Qoşunların veteranlarını birləşdirən ictimai təşkilat kimi formalaşmış Veteranlar Şurasının Əsasnaməsi Daxili Qoşunlar Komandanının 15.01.2005-ci il tarixli əmri ilə təsdiq olunub. Bu Şuranın tərkibində Daxili Qoşunların müharibə və silahlı qüvvələr veteranları təmsil olunurlar. Əsasnaməyə görə, Şura veteranların sosial, əmək, siyasi, şəxsi hüquq və azadlıqlarını müdafiə edir.

Onlar qoşunların bu günü ilə yaxından , hər bir hərbçinin xidməti-döyüş fəaliyyətində onlara yaxından köməklik göstərirlər. Veteranlar Şurası şəxsi heyətə vətənpərvərlik ideyalarının aşılanmasında, əsl vətəndaşlıq məziyyətlərinin formalaşmasında, onların tərbiyəsi işində öz zəhmətini heç vaxt əsirgəmir.

Daxili Qoşunların Veteranlar Şurasının sədri Murad Mürsəlov, sədr müavini Telman Aslanov, şuranın katibi Yalçın Abbasov, şura üzvləri - Səfxan Bayramov, Mehralı Şamxalov və Əlixan Bünyatov qoşunların sıralarına yeni qəbul olunmuş əsgərlərlə çalışır, onların hərbi xidmətə uyğunlaşmaları üçün əllərindən gələni əsirgəmirlər. Daxili Qoşunların döyüş yolu, 23 illik həyatında qazandığı uğurları, nailiyyətləri barədə onları məlumatlandırırlar. Gənc əsgərlərlə hərbi kollektivdə komandirlərin rolu, torpağın müqəddəsliyi mövzularında aparılan söhbətlər, təbii ki, onların bu yöndə əqidəsinin inkişafına zəmin yaradır.

Ümumiyyətlə, veteranlarımızın keçdiyi ömür yolu elə Daxili Qoşunların tarixi qədər şərəflidir, zəngindir. Vətənimizin bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak etməklə yanaşı, həm də yaradıcılıqla məşğul olmaları veteranlarımızı gənc hərbçilərin gözündə əsl qəhrəmana çevirir.

Xalqımızın dar günündə həm silaha sarılmaq, həm də düşmənin təzyiqlərinə qələmlə, sözlə cavab vermək, insanların mübarizə əzmini gücləndirmək deyərdim ki, ikiqat qəhrəmanlıqdır.

Sözə, sənətə qiymət verən veteranlarımızdan döyüşçü-şair “Qızıl qələm” mükafatı laureatı, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü Elxan Xəzərin və uzun müddət Daxili Qoşunların Mətbuat xidmətində - “Əsgər” qəzetində çalışmış Yalçın Abbasovun adlarını çəkə bilərik. Bu insanlar həyatlarının ən gözəl çağlarını Vətənə, dövlətə, xalqa xidmətə həsr ediblər. Daxili Qoşunların keçdiyi döyüş yoluna dərindən bələd olan veteranlarımız bugünkü nailiyyətləri görür və bütün zabit, gizir, çavuş heyəti ilə öz təcrübəsini bölüşürlər.

Sıralarımızda olan bütün hərbi qulluqçular veteranlarımızla sözün əsl mənasında fəxr edir, bundan sonrakı fəaliyyətlərində onlara uğurlar arzulayırlar.

**gizir N.Rzayeva**

# ZABİTLƏRİMİZ MƏKTƏBLİLƏRİN HƏRBİ HAZIRLIĞINA KÖMƏKLİKLƏRİNİ ƏSİRGƏMİR

Gənc nəslin hərbi vətənpərvərlik hisslərinin artırılması istiqamətində Daxili Qoşunların həyata keçirdiyi layihələr Bakı şəhəri ilə yanaşı, regionlarda da uğurla davam etdirilir. Ezamiyyətdə olduğum 12318 saylı hərbi hissədə bunun bir daha şahidi oldum.

Hacıqabul şəhər 8 saylı humanitar fənlər təmayüllü məktəb-liseyinin yuxarı sinif şagirdləri ibtidai hərbi biliklərə yiyələnmək məqsədilə hərbi hissədə təlimlərə cəlb olunurlar. Məktəbdə hərbi rəhbər Ramil İbişov söhbət əsnasında bildirdi ki, bu cür layihələrin keçirilməsi gənc nəslin vətənpərvər ruhda tərbiyəsinə, eyni zamanda əsgərlik həyatına daha asan uyğunlaşmasına əhəmiyyətli dərəcədə təsir edir. Bu da müharibə şəraitində yaşayan bir ölkə üçün vacib amillərdən biridir.

Ramil müəllim “Şahinlər” hərbi idman və turizm oyunlarının zona yarışına ciddi hazırlaşdıqlarını dedi. Məşqlərdə Daxili Qoşunların zabit, gizirlərinin danılmaz əməyini qeyd edən məktəbin hərbi rəhbəri, bütün zəruri avadanlıqlarla təchiz olunduqlarını söylədi.

O, təlimlərdə əsasən sıra hazırlığına, silahların sökülüb-yığılmasına, eləcə də taktiki-texniki xüsusiyyətlərinin dərindən mənimsənilməsinə diqqət yetirildiyini nəzərə çatdırdı. Oyunlar zamanı qalib olmaq üçün sadalananların vacibliyini deyən Ramil müəllim yaradılan şəraitə görə DİN Daxili Qoşunların rəhbərliyinə, hərbi hissə komandanlığına və şagirdlərə məşğələ keçən mayor Ramin Əliyevə, baş leytenant Samir Səfərova dərin minnətdarlığını bildirdi.

**baş leytenant T.Əlizadə**

# ŞƏXSİ HEYƏT TƏDBİR-SƏRGİDƏ İŞTİRAK EDİB




Azərbaycan Respublikası Prezidentinin 23 fevral 2015-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı”na əsasən, mayın 7-də Azərbaycan İstiqlal Muzeyinin ekspozisiyasında İkinci Dünya Müharibəsində faşizm üzərində Qələbənin 70 illiyinə həsr olunmuş “Yaddaş körpüsü” adlı tədbir-sərgi keçirilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan İstiqlal Muzeyinin direktoru Fəridə Şəmsi, XX əsrin əvvəllərində baş vermiş II Dünya Müharibəsi illərinin bəşəriyyət üçün ən ağır və dəhşətli dövr olduğunu, eləcə də faşizm üzərində qələbənin əldə olunmasında Azərbaycan xalqının böyük rolu olduğunu deyib. Qeyd edib ki, müharibə illərində 123 nəfər həmyerlilərimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfər isə “Şöhrət” ordeni ilə təltif olunublar.

Daxili Qoşunların, Milli Qvardiyanın və Sərhəd Qoşunlarının şəxsi heyətinin, eləcə də Veteranlar Şurasının, Mərkəzi Zabitlər Evinin, Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzinin üzvlərinin iştirak etdiyi tədbirdə veteran Əlikişi Cümşüdov, Mərkəzi Zabitlər Ev muzeyinin rəisi, jurnalist-şairə Zəminə Xınalı və neftçi, əmək veteranı Sədrəddin Vəliyev çıxış edərək, vətənimizin oğul və qızlarının qələbənin qazanılmasındakı böyük rolu barədə tədbir iştirakçılarına geniş məlumat veriblər.

Sonra muzeyin fondunda saxlanılan plakat kolleksiyası və II Dünya müharibəsini əks etdirən müxtəlif əşyalar nümayiş olunub.

Qeyd edək ki, tədbirdə Daxili Qoşunların Baş İdarəsində Şəxsi heyət üzrə İdarənin Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri baş leytenant Anar Əhmədov və baş leytenant Bəxtiyar Əliyevin rəhbərliyi altında 67987 saylı hərbi hissəsinin otuz gizir və müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu da iştirak edib.

**Mətbuat xidməti**